Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Ədalət. S.7.

№ 172 (2020) 26 noyabr 2019-cu il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az


(əvvəli ötən sayımızda)

# Salman Mümtaz haqqında düşüncə-

**S.Mümtazın Aşqabaddan köçməsi ilə bağlı olan 1910 və 1918-ci il tarixlərindən hansı daha doğrudur? Bəlkə də S.Mümtaz 1910-cu ildə Aşqabaddan Azərbaycana, yəqin ki, doğma şəhəri Şəkiyə köçmüş, 8 il yaşayış yeri Şəki olmaqla fəaliyyət göstərmiş, nəhayət, 1918-ci ildə Bakıya üz tutmuşdur. Hər halda, 1918-ci ildə S.Mümtazın Şəkidə IX türk ordusunun komandanı Nuru Paşaya (1889-1949) "Ənvəriyyə" şeirini təqdim etməsi faktı "Azərbaycan" qəzetinin 1918-ci il oktyabr nömrəsində öz əksini tapmışdır. 1918-ci ildə Ənvər Paşanın (1881-1922) azərbaycanlıları erməni genosidindən xilas edən ordusunu alqışlamışdır.**

-Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtərəm Ənvər!
Səninlə fəxr edir şimdi böyük sultan, ulu qeysər.

Nuru Paşa Şəkidə olarkən "Öyün, millət" şeirini elə onun özünə həsr etmişdir. Elə bu faktın özü 1910-cu ildə Aşqabaddan Şəkiyə köçən S.Mümtazın 1918-ci ilin sonlarınadək Şəkidə yaşadığını, yeri gəldikcə "Molla Nəsrəddin" jurnalının yayımı ilə əlaqədar olaraq yenə də Orta Asiyaya, Sibirə, Rusiyaya, Bakıya köçməsi 1918-ci ilin sonlarına təsadüf edir.

Salman Mümtaz 1920-ci ilin 28 aprelində baş verən məlum tarixi faciədən sonrakı qeyri sabitlik şəraitinin hadisələrini yaşamaq məcburiyyətində qalır və Azərbaycanın digər ziyalıları kimi O da sovet dönəminin ilk illərindən şurəvi istiqamətdə nəşr edilən "Füqəra füyuzatı", "Kommunist", "Maarif və mədəniyət", "Azərbaycanı öyrənmə yolu" kimi jurnal və qəzetlərlə 1920-1930-cu illərdə əməkdaşlıq edib. Salman Mümtaz 1937-ci ildə yazdığı "Avtobioqrafiya"sında 1920-1921-ci illərdə "Füqəra füyuzatı"nda, 1923-1926-cı illərdə "Kommunist"də, 1923-1927-ci illərdə "Maarif və mədəniyyət"də, 1928-1934-cü illərdə "İnqilab və mədəniyyət"də, "Azərbaycanı öyrənmə yolu"nda əməkdaşlıq etdiyini, 1926-1936-cı illərdə "Azərnəşr"də klassik irs şöbəsinin müdiri, 1932-ci ildə Azərbaycan Dövlət Muzeyinin elmi işçisi yazısında, " 1933-cü ilin axırlarında "Azərnəşr"in "Ədəbi irs" şöbəsinə müdir göndərildim" deyən Salman Mümtazın "Avtobioqrafiyası"nda 1926-1936 tarixlərindən istifadə etməsi də çox qəribədir. Eyni zamanda Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun, AZFAN-ın dil, ədəbiyyat və sənət institutunda baş elmi işçi, "Kapitalizm dövrünədək Azərbaycan ədəbiyyatı bölməsi" nin rəhbəri olmuşdur. Salman Mümtaz 1934-cü ildən AYB-nin üzvü olub və elə həmin il Sovet Yazıçılarının Birinci Ümumi İttifaq qurultayına nümayəndə seçilmişdir.

Salman Mümtaz repressiya qurbanıdır. 1938-ci ildə həbs edilmiş, 1941-ci ildə sürgündə güllələnmişdir. 2004-cü ildə nəşr edilmiş "XX əsr Azərbaycan yazıçıları"ensiklopedik-məlumat kitabında " Respublika Əlyazmaları İnstitutuna onun adı verilmişdir" cümləsi getsə də, adı gedən elmi müəssisə M.Füzulinin adını daşıyır.

Yaradıcılığının ilk illərindən satirik bir şair kimi tanınan S. Mümtaz 1908-1909-cu illərdən etibarən Azərbaycan dövrü mətbuatında satirik şeirləri və mənzum felyetonları ilə çıxış etmişdir. Heç şübhəsiz ki, onun satiraya meyl etməsi hələ 11 yaşında ikən, 1893-cü ildə Aşqabadda görüşünə gəldiyi böyük M.Ə.Sabirin təsiri ilə olmuş, "Molla Nəsrəddin" jurnalının nəşri və oradakı satirik şeirlər bu təsiri daha da gücləndirmişdir. Bu faktı Salman Mümtazın özü belə təsdiq edir: "1906-cı ildə "Molla Nəsrəddin" məcmuəsi çıxmağa başlarkən bir oxucu sifəti ilə mənim də diqqətimi cəlb etdi... Odur ki, 1906-cı ilin son yarısından etibarən " Molla Nəsrəddin" məcmuəsinə yazdığım əhəmiyyətsiz yazılar, xırda-xırda xəbər, məqalə, məktəb, həm də bəzi imzasız şeirlərdən ibarətdir. Yalnız 1910-cu ildən etibarən Sabir üsulunu



**Bu tarixi bir şəkildir. Bu şəkil təsdiq edir ki, Salman Mümtaz 1910-cu ildə Aşqabaddan Azərbaycana- Şəkiyə gəlib 1919-cu ilə qədər Şəkidə yaşayıb və yerli ziyalılarla səmimi dostluq münasibəti olub. Foto 1917-ci ildə Şəki xan sarayının qarşısında keçilib. Şəkildə orta sırada oturanlar sağdan birinci Müsavat partiyasının Azərbaycanda yaradıcılarından biri Hacı Bala bəy, ikinci Cumhuriyyət illərində Şəkinin parlament deputatı Abdulla bəy Əfəndiyev, üçüncü Salman Mümtaz, dördüncü həmin illərdə Şəkinin qubernatoru, beşinci Məmmədtağı bəy Nağıbəyov, altıncı yazıcı- publisist Rəşid bəy Əfəndiyev. (Qubernatordan başqa şəkildə görünənlərin hamısı Şəki sakinləridir.)**

az-çox mənimsəməyə imkan və diqqət tapa bildim". Əlbəttə ki, S.Mümtazın ədəbi-yaradıcılığına Molla Nəsrəddinçi şairlər, xüsusilə C.Məmmədquluzadə də təsir göstərirdi. Hətta, C.Məmmədquluzadə 1916-cı ildə çap etdirdiyi "Nigarançılıq" hekayələr kitabının üz qabığında "Molla Nəsrəddinin həqiqi dostu Salman Mümtaz naminə yadigardır" sözlərini yazmışdı. Salman Mümtazın Aşqabaddan tanıdığı Məmmədəli Manafzadə, Mirfəttah Musəvi, Zülfüqar Cəfərov, Cəfər Tahirov, Rza Səmədov, Mirəhməd Mirdadaşzadə, Məhəmməd Səid Dağıstani, Azərbaycanda dostluq etdiyi A.Səhhət, Y,V.Çəmənzminli, Kazımoğlu (Seyid Hüseyn) Sultanməcid Qənizadə, Tağı Şahbazi Simurq, Cəfər Cabbarlı çevrəsini , Y.N.Tolstoy, A.M.Qorki, A.Tolstoy, S.Ayni, Robindrhant Taqor, Mudi, Yuri Marr, A.N.Samoyloviç, Meşşaninov, A.Krımski, Y.Bertels, İ.Yunikoloqov kimi şöhrətli adamlarla görüşünü bunun üzərinə gəlsək onun yetişdiyi və kamilləşdiyi mühiti daha aydın təsəvvür edərik. Bütün bunlarla bərabər Azərbaycan ədəbiyyatı tarixində Salman Mümtaz şəxsiyyəti məhz bu sahədə öz əzəməti və böyüklüyü ilə görünməkdədir. Kiçik jurnal və qəzet məqalələri ilə yanaşı ayrı-ayrı şairlərin kitablarını toplayıb nəşr etdirmək həvəsi ilə yaşayan S.Mümtazın nəşr etdirdiyi ilk kitab "Seyid Əhməd hatif İsfəhaninin tərcibəndi və tərcüme-yi-halı" adı ilə 1913-cü ildə Tiflisdə " Şərq" mətbəəsində çap olunmuşdur. Seyid Hüseyn "İqbal" qəzetinin 15 avqust 1913-cü il nömrəsində bunu yüksək dəyərləndirmişdir. Mirzə Şəfi Vazeh haqqında ilk məlumatı da məhz Salman Mümtaz vermişdir. Onun bu məlumatı S.Hüseynin redaktoru olduğu "Qurtuluş" jurnalının 1920-ci il birinci nömrəsində dərc olunmuşdur. Onun "Ədəbiyyatımız tarixindən" "Zövqi" məqaləsi də elə bu jurnalda işıq üzü görmüşdür. "Füqəra füyuzatı" jurnalında isə Nəşə Təbrizi, Həbibi, Vaqif və Rudəki haqqında məqalələrlə çıxış etmişdir. 1923-cü ildə "Kommunist qəzetində Həbibiyə həsr etdiyi məqaləsinə görə S.Mümtazı "əsil qəhrəman" adlandırmışdır. Yenə 1923-cü il 22 fevral tarixli məktubunda Tağı Şahbazi Simurqa ünvanladığı məktubda S.M.Qənizadə S.Mümtazın "Nəsimi" məqaləsini yüksək qiymətləndirmişdir. "Mümtazın məqaləsi əcibə" nəqş-nüma" kimi yeni tapılmış şairimizi rəngarəng tərkiblərdə göstərir: Nəsimi-şair, Nəsimi-filosof, Nəsimi-aşiq, Nəsimi-sufi, Nəsimi-hürufi" Bu fəqərələrin hər birisi... ayrı-ayrı bir məqaləyə mündəricə ola bilərlər".

Salman Mümtaz 600 il özündən əvvəl yaşamış İ.Həsənoğlu və Yunis İmrənin müasiri Molla Qasım Şirvani haqqında ilk dəfə məlumat verən tədqiqatçıdır. İsmayıl bəy Qutqaşınlının ,, Rəşid bəy və Səadət xanım,, əsəri də məhz Salman Mümtazın səyi nəticəsində əldə edilmiş və çap olunmuşdur. Onun Azərbaycan ədəbiyyatı tarixində əvəzolunmaz xidmətləri vardır və xalqımız, dövlətimiz bunu layiqincə dəyərləndirməlidir.

Vaqif Aslan söhbətini yekunlaşdırdı. Ətrafımıza toplaşanlar ona təşəkkür etdilər. Onlar bizə yanan evin yerini göstərdilər və gənclərin bir neçəsi bizimlə birgə həmin evə getdi. Biz yanmış evə çatanda gördük burada təmir- bərpa işlərinə başlanıb. Bu, bizdə bir qədər xoş əhval- ruhiyyə yaratdı. Hazırda həmin evdə yaşayan halvçı Rasimin böyük qardaşı Elxan Cavadov bizə məlumat verdi ki, evdə yanğından sonra bir neçə gün təmizlik işləri aparılıb, çox yanan yerlər sökülüb. İndi təmir- bərpa işlərinə başlamışıq. Şəhərimizin sakinləri, əsasən qonşularımız bizə yardım məqsədi ilə vəsait toplayırlar. Müəyyən qədər pul yığılıb və biz də tikinti materialları alıb hissə- hissə təmir işini davam etdiririk.

Biz Elxana dedik ki, aldığımız məlumata görə bu ev Salman Mümtazın dünyaya göz açdığı ata- baba evidir. Elxan bunu təsdiqlədi və dedi ki, bəli bu ev Salman Mümtazın evi olub. Biz bu evi təxminən 40 il əvvəl almışıq. Əgər Dövlətimiz bu evi muzey etmək istəsə və əvəzində mənim ailəmə münasib mənzil versə, məmnuniyyətlə bu evi təhvil verərik. Təki, böyük şəxsiyyətlər, vətənpərvər insanlar layiqincə qiymətləndirilsin. Biz, onun bu təklifini alqışladıq, ailəsinə sağlam yaşamaq və işlərinə müvəffəqiyyətlər arzuladıq. Biz həmin evin həyətində bir müddət dayanıb görülən işlərə nəzər yetirdik. Bənna və dülgərin səliqə ilə gördüyü işlər bizdə bir qədər rahatlıq hissi yaratdı. Ustalara xeir- dua edib darvazaya tərəf gedəndə mənə elə gəldi ki, Salman Mümtazın kövrək, dövründən küsgün ruhu başımızın üstündə hərlənir və mən qeyri- ixtiyari dedim.

**-Ruhun həmişə şad olsun, ey böyük şəxsiyyət!**


*Çingiz Ənvəroğlu,*
*Şəki*



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR